# Qurtuluşun tarixi töhfələri

## Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı tarixi zərurət, ictimai və sosial sifariş, nəhayət, milli-mənəvi tələbat idi



**Bəşəriyyətin müdrik insanları bilirlər ki, tarix təbii hadisə deyil, ictimai hadisədir. Ona görə ki, tarix flora və fauna kimi mütləq təbii qanunlara deyil, dəyişkən ictimai-fəlsəfi qaydalara tabedir.**

Rəvayətə görə, Makedoniyalı İsgəndər qədim yunan filosofu Diogenə özünü günəş altında qaraltmaq üçün çəlləkdən çıxanda belə sual vermişdi: "Yenə çəlləyə qayıdacaqsan?" Ağzıüstə uzanıb kürəyini günəşə verən Diogen onu çəp-çəp süzərək deyib: "Görmürsən şüa qəbul edirəm? Günəşin qabağını kəsmə". Aləmin və həyatın mahiyyətini anlamaq üçün dünya nemətlərindən əl çəkib çəlləkdə ömür çürütməsinə səbəb olan sualların cavabı bəlkə də, filosofla sərkərdənin bu dialoqundadır. Allah bilir, İsgəndər vaxtsız əcələ tuş gəlməsəydi, indi dünyanın halı necəydi. Amma Diogen lap min il də çəlləkdə yaşasaydı, dünyanın halına təfavüt etməyəcəkdi: uzaqbaşı beş-altı müdrik kəlmə artıq olacaqdı.

Makedoniyalı İsgəndərin vaxtsız əcələ tuş gəlməsini və bununla dünyanın nizamının nə qədər dəyişməsini nəzərə alsaq görərik ki, şəxsiyyətlər həmişə tarixin fövqündə durur və bəzən bir ötəri, yaxud təsadüfi hadisə sonradan böyük tarixi kataklizmlərə də çevrilə bilir. Bax, tarixin belə qəribəlikləri var və şəxsiyyətlər nə qədər onun fövqündə dursalar da, nə qədər hökm etsələr də, onun tabe olduğu bircə məfhum var: Zaman! Vaxt yalnız onun süzgəcindən keçdikdən sonra əsl tarixə çevrilir.

Ümummilli Liderimiz 1990-cı ildə Moskvadan Naxçıvana qayıdanda məqsədi nə idi? Ona yaxından bələd olanların və özünün dəfələrlə təkrar etdiyi kimi o, Naxçıvana hakimiyyət üçün yox, ömrünün axırınadək ata-baba yurdunda yaşamaq, min ilin yorğunluğunu çıxarmaq, xatirələrini yazmaq üçün gəlmişdi. Amma, zaman və tale onu sakitcə qocalmağa yox, böyük sınaqlara doğru aparırdı. Çünki Böyük Öndərin çiynində bütöv bir millətin, xalqın, dövlətin taleyi dururdu. Bu seçim tək xalqın deyil, həm də Tanrınınkı idi.

"Sobesednik" jurnalının müxbiri ilə söhbət zamanı Heydər Əliyev deyir: "Mən peyğəmbər deyiləm, sabah nə olacağını bilmirəm. Ancaq bir şeyi çox dəqiq bilirəm: bu dəhşətli anda hər şeyi atıb getmək adamlara xəyanət etmək deməkdir. Xalqın mənə inam, etibar göstərdiyi qədər mən onun yanında və arxasında olacağam".

Əgər Marqaret Tetçerin təbirincə desək, "Nə qədər ki, Azərbaycanın Heydər Əliyevə ehtiyacı var, o, heç vaxt yorulub usanmayacaq".

Tanrı seçəni xalq da seçər!

Böyük Öndərin hakimiyyətə qayıdışı sadəcə hansısa siyasətin tərkib hissəsi deyildi. Hakimiyyətdən gedib, sonradan qayıdanlar barədə tarixi məxəzlərdə o qədər məlumatlar var ki... Amma Böyük Öndərin hakimiyyətə yenidən qayıdışı tamamilə ayrı siyasi-fəlsəfi müstəvidə idi. Bu, təbliğatın, təşviqatın, yaxud kiminsə, kimlərinsə istəyinin nəticəsi deyildi. Heydər Əliyevin qayıdışı tarixi zərurət, ictimai və sosial sifariş, nəhayət, milli-mənəvi tələbat idi.

Eyni zamanda 1990-1993-cü illərin hadisələri də xalqa bir daha anlatdı ki, məhz Heydər Əliyev dünyanın siyasi düzümünü və nizamını müəyyənləşdirən, arxasında super güc dayanan siyasətçilərin hesablaşdıqları, məsləhət aldıqları şəxsiyyətdir. Böyük bir geopolitik məkan məhz onun təsir dairəsindədir, heç bir siyasi məsələlər onsuz həll olunmur. Onsuz dünya siyasətçilərinin işi aşmır.

Bir məsələni də xüsusi vurğulamaq yerinə düşər ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı tək bizim xalqın tələbi deyildi, haçansa zaman qarşısında hesabat verəcək tarixin içindən gələn tələb idi.

Oksford Universitetinin beynəlxalq əlaqələr üzrə amerikalı professoru Meyl Makfarleyik yazır: "Ölkənizin əhəmiyyətli bir qisminin yurisdiksiyanızdan kənarda qaldığı və suverenliyinizin təhdid edildiyi bir şəraitdə demokratik, qanunla idarəçiliyə əsaslanan siyasətlərin formalaşdırılmasında uğur qazanması mümkünsüzdür". Bəli, ümummilli liderimiz, "mümkünsüzlük" vəziyyətindən fəaliyyətə başlamışdı. Və ən heyrətlisi də odur ki, böyük öndər dövlətimizi nəinki "mümkünsüzlük" vəziyyətindən çıxardı, eyni zamanda demokratik təsisatların formalaşdırılması, iqtisadi islahatların həyata keçirilməsi üçün qanuni bazanın yaradılmasına nail oldu.

Bu mənada Qurtuluş xalqın yalnız siyasi hoqqabazlardan canını qurtardığı gün deyil. Qurtuluş daha geniş ictimai-siyasi müstəvidə qavranılması vacib olan, özünün mahiyyətində fəlsəfi yön daşıyan böyük bir anlayışdır. Qurtuluş bütöv bir xalqın, dövlətin, ölkənin nicat fəlsəfəsidir. Azərbaycan dövlətinin və xalqının yaşam düsturudur. Bu inkişaf və dirçəliş, sabitlik və əmin-amanlıq formuludur.

Tale bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda ölkələr və cəmiyyətlər bəşəri bir xilaskarın, fenomen şəxsiyyətin, xarizmatik liderin gəlişinə ehtiyac duyurlar.

"Olum, ya ölüm" dilemması qarşısında qalan xalq 1993-cü ilin iyununda qəti qərar vermişdi: böyük dövlət xadimi Heydər Əliyev Bakıya dəvət olunmalı, hakimiyyət ona verilməli, Azərbaycan və onun dövlətçiliyi xilas edilməlidir. Çünki xalq ona öz varlığı qədər inanırdı.

Həmin dövrdə Azərbaycanda ictimai-siyasi durumu və Ümummilli Lider Heydər Əliyevin fəaliyyətini təhlil edən A.Budberq "Moskovskiy komsomolets" qəzetində yazırdı: "Azərbaycanın hazırkı bütün dövlət quruluşu, bütün siyasi sistemi, əslində Heydər Əliyevin çiynindədir. O, sabitliyə təkbaşına zəmanət verir və bunu təmin edir".

Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin təhlili göstərir ki, o yeni dövrün tələblərinə uyğun, xalqın istək və arzularına yaxından bələd olmaqla siyasi sistemin mahiyyətindəki disharmoniyanı görmüşdür.

Fransanın sabiq Prezidenti Jak Şirak yazır: "Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir".

1993-cü ildə Heydər Əliyevin ümumxalq çağırışı ilə hakimiyyətə qayıdışı Azərbaycanın milli dövlətçiliyinin inkişafının düzgün alternativini seçmək yolunda xalqın çox müdrik addımı oldu. Bu alternativ heç bir başqa təcrübəni, xarici ölkələrə xas olan ənənələri korkoranə təkrar etmədən, əsrlər boyu yaranmış təsərrüfat ənənələrini, milli mentaliteti və mövcud reallıqları əsas götürdü.

Məhz müdrik siyasətçi, təcrübəli dövlət xadiminin yenidən hakimiyyətə qayıdışı millətin, xalqın, Vətənin qurtuluşu ilə nəticələndi. Azərbaycanın müstəqilliyini dönməz etdi. Ölkədə möhkəm, davamlı sabitlik təmin edildi. Heydər Əliyev cənabları xalqı bir bayraq altında birləşdirdi, daxili stabilliyi qoruyub saxladı, cəmiyyətin bütün potensialını mənəvi-psixoloji, sosial-iqtisadi mühitin sağlamlaşdırılmasına yönəltdi.

Məhz Heydər Əliyevin siyasi və şəxsi nüfuzu, xarici və daxili siyasət kursunun düzgünlüyü, yorulmaz mübarizəsi nəticəsində Azərbaycan nüfuzlu, etibarlı, perspektiv imkanları olan bir dövlət kimi dünya dövlətləri birliyinə daxil oldu və öz layiqli yerini tutdu.

Heydər Əliyev hər adama qismət olmayan 35 ilə yaxın bir dövrdə xalqının tarixində və taleyində elə bir şərəfli həyat yaşamışdır ki, onun əlçatmaz ucalığı Azərbaycan xalqı yaşadıqca yaşayacaqdır. "Mən öz həyatımın mənasını xalqıma xidmətdə görürəm" - deyən Heydər Əliyev həmişə xalqı ilə nəfəs almış, həyatının mənasını xalqına xidmətdə görmüşdür.

Ümummilli Lider Heydər Əliyev coşqun və səmərəli fəaliyyəti ilə müstəqil Azərbaycanın yeni tarixinin parlaq və şanlı səhifələrini yazmış və onun siyasi varisi və layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün qətiyyəti və mübarizliyi ilə bir övlad kimi atasının Azərbaycana verdiyi töhfələrdən bəhrələnərək Vətən və xalq sevgisi ilə ehtiva etdiyi vətəndaşlıq təəssübkeşliyindən qaynaqlanıb ölkəmizi daha uca zirvələrə doğru aparır.



**FİZULİ İBRAHİMZADƏ**
**Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**